# XƏZƏR UNİVERSİTETİNDƏ TƏLƏBƏLƏRİN GENDER BÖLGÜSÜ

*Bu məqalədə Xəzər Universitetində təhsil alan tələbələrin statistik göstəriciləri təhlil edilib. Təhlil ümumi tələbə sayı, təhsil pillələri, fakültələr və ixtisaslar üzrə bölgünü əhatə edir. Eyni zamanda, gender nisbətləri faiz göstəriciləri əsasında qiymətləndirilib və tələbə kontingentinin struktur xüsusiyyətləri müəyyən edilib. Aparılan təhlil nəticəsində əsas tendensiyalar və fərqlər üzə çıxarılıb.*

## Giriş

Xəzər Universiteti Azərbaycanın ilk özəl ali təhsil müəssisəsidir. 1991-ci ildə cəmi 19 tələbə ilə fəaliyyətə başlayan universitetində hazırda 5000-dən çox tələbə təhsil alır. Bu günə qədər isə 8000-dən çox tələbə məzun olub.Məzunlar Azərbaycanın dövlət və özəl təşkilatlarında, eləcə də xarici ölkələrdə müxtəlif vəzifələrdə çalışır, təhsillərini davam etdirirlər.

Xəzər Universitetində statistik məlumatların təhlili idarəetmə, planlaşdırma və ümumilikdə, universitetin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, tələbələrin ixtisaslar və təhsil pillələri üzrə bölgüsü universitetin akademik istiqamətlərini və tələbə maraqlarını əks etdirən əsas göstəricilərdən biridir.

### Ümumi gender bölgüsü

Xəzər Universitetində təhsil alan tələbələrin sayı ilə bağlı statistik təhlil ali təhsil müəssisəsində gender bölgüsünün maraqlı mənzərəsini ortaya çıxarır. Aşağıdakı cədvəllərdə tələbələrin ümumi, həmçinin, qız və oğlanların sayı faiz göstəriciləri təqdim edilir.

Universitetdə ümumi tələbə sayı 5129 nəfərdir. Bu tələbələrin 3522 nəfərini qızlar təşkil edir ki, bu, ümumi tələbə sayının 68.7 faizidir. Oğlan tələbələrin sayı isə 1607 nəfərdir və bu, ümumi tələbələrin 31.3 faizi deməkdir.

| | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Cəmi | 5129 | 3522 | (68.7 %) | 1607 | (31.3 %) |

Cədvəldən göründüyü kimi, Xəzər Universitetində qız tələbələrin sayı oğlan tələbələrə nisbətən xeyli çoxdur. Bu fərq təxminən iki dəfədən artıqdır və bu, universitetə maraq göstərənlər arasında qızların oğlanlara nisbətən ciddi üstünlük təşkil etdiyini göstərir.

### Pillələr üzrə tələbələrin gender bölgüsü

### Bakalavr pilləsi

Tələbələrin təhsil pillələri üzrə bölgüsünə nəzər saldıqda məlum olur ki, ən böyük pay bakalavr pilləsinə aiddir. Belə ki, 4609 tələbə bakalavr səviyyəsində təhsil alır ki, bu da ümumi tələbə sayının təxminən 89,9%-ni təşkil edir. Bu pillədə 3186- sı qız (69,1%), 1423- ü isə oğlandır (30,9%).

**Magistr pilləsi**

Magistr pilləsində təhsil alan tələbələrin sayı 469 nəfərdir. Bu, ümumi tələbə sayının təxminən 9,1%-ni təşkil edir. Onlardan 303 nəfəri qız (64,6%), 166 nəfəri isə oğlandır (35,4%).

**Doktorantura pilləsi**

Doktorantura səviyyəsində cəmi 51 nəfər təhsil alır. Bu da ümumi tələbə sayının təxminən 1%-i deməkdir. Onlardan 33- ü qız (64,7%), 18- i isə oğlandır (35,3%).

| Pillələr | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Bakalavr | 4609 | 3186 | (69.1%) | 1423 | (30.9%) |
| Magistr | 469 | 303 | (64.6%) | 166 | (35.4%) |
| Doktorantura | 51 | 33 | (64.7%) | 18 | (35.3%) |
| Cəmi | 5129 | 3522 | (68.7%) | 1607 | (31.3%) |

Ümumilikdə, bütün təhsil pillələri üzrə Xəzər Universitetində qız tələbələrin sayı oğlanlardan daha çoxdur. Bu fərq xüsusilə bakalavr pilləsində daha qabarıq şəkildə özünü göstərir.

**Fakültələr üzrə tələbələrin gender bölgüsü**
**Bakalavr pilləsi**

| Fakültə | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Təbiət elmləri və mühəndislik | 1641 | 1007 | (61,4%) | 634 | (38,6%) |
| İqtisadiyyat və menecment | 793 | 383 | (48,3%) | 410 | (51,7%) |
| Humanitar, təhsil və Sosial elmlər | 2035 | 1702 | (83,7%) | 333 | (16,3%) |
| Hasvet baytarlıq təbabəti | 140 | 94 | (67,1%) | 46 | (32,9%) |
| Cəmi | 4609 | 3186 | (69,1%) | 1423 | (30,9%) |

Bakalavr pilləsində qızların sayı oğlanlardan çoxdur, xüsusən Humanitar, təhsil və sosial elmlər fakültəsində bu fərq daha kəskin nəzərə çarpır. İqtisadiyyat və menecment fakültəsi isə oğlanların üstünlük təşkil etdiyi yeganə fakültədir.

**Magistr pilləsi**

| Fakültə | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil | 172 | 128 | (74,4%) | 44 | (25,6%) |
| İqtisadiyyat və biznes yüksək təhsil | 297 | 175 | (58,9%) | 122 | (41,1%) |
| Cəmi | 469 | 303 | (64,6%) | 166 | (35,4%) |

Magistr pilləsində də qız tələbələrin üstünlüyü davam edir.

**Doktorantura pilləsi**

| Fakültə | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Təbiət elmləri, sənət və yüksək təhsil | 41 | 27 | (65,9%) | 14 | (34,1%) |
| İqtisadiyyat və biznes yüksək təhsil | 10 | 6 | (60,0%) | 4 | (40,0%) |
| Cəmi | 51 | 33 | (64,7%) | 18 | (35,3%) |

Doktorantura pilləsində də qızların say üstünlüyü var.

**İxtisaslar üzrə gender bölgüsü**
**Bakalavr pilləsi**
**Təbiət elmləri və mühəndislik fakültəsi**

| İxtisasların adı | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Dizayn | 90 | 69 | (76.7%) | 21 | (23.3%) |
| Biologiya müəllimliyi | 48 | 47 | (97.9%) | 1 | (2.1%) |
| Biotexnologiya | 16 | 13 | (81.3%) | 3 | (18.7%) |
| Coğrafiya müəllimliyi | 18 | 13 | (72.2%) | 5 | (27.8%) |
| Elektrik və elektronika mühəndisliyi | 66 | 14 | (21.2%) | 52 | (78.8%) |
| Fizika müəllimliyi | 35 | 35 | (100%) | 0 | (0%) |
| İnformasiya təhlükəsizliyi | 30 | 11 | (36.7%) | 19 | (63.3%) |
| İnşaat mühəndisliyi | 46 | 15 | (32.6%) | 31 | (67.4%) |
| Kimya müəllimliyi | 36 | 32 | (88.9%) | 4 | (11.1%) |
| Kimya mühəndisliyi | 74 | 45 | (60.8%) | 29 | (39.2%) |
| Kimya və biologiya müəllimliyi | 166 | 149 | (89.8%) | 17 | (10.2%) |
| Kompüter elmləri | 231 | 92 | (39.8%) | 139 | (60.2%) |
| Kompüter mühəndisliyi | 285 | 102 | (35.8%) | 183 | (64.2%) |
| Mexanika mühəndisliyi | 32 | 6 | (18.8%) | 26 | (81.2%) |
| Memarlıq | 49 | 43 | (87.7%) | 6 | (12.2%) |
| Neft-qaz mühəndisliyi | 94 | 34 | (36.2%) | 60 | (63.8%) |
| Radiotexnika və telekommunikasiya mühəndisliyi | 34 | 21 | (61.8%) | 13 | (38.2%) |
| Riyaziyyat və informatika müəllimliyi | 184 | 161 | (87.5%) | 23 | (12.5%) |
| Təsviri incəsənət müəllimliyi | 107 | 105 | (98.1%) | 2 | (1.9%) |
| Cəmi | 1641 | 1007 | (61.4%) | 634 | (38.6%) |

**İqtisadiyyat və menecment fakültəsi**

| İxtisasların adı | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Biznesin idarə edilməsi | 145 | 64 | 44.1% | 81 | 55.9% |
| İqtisadiyyat | 60 | 32 | 53.3% | 28 | 46.7% |
| Maliyyə | 116 | 54 | 46.6% | 62 | 53.4% |
| Marketinq | 76 | 37 | 48.7% | 39 | 51.3% |
| Menecment | 35 | 21 | 60% | 14 | 40% |
| Mühasibat | 110 | 52 | 47.3% | 58 | 52.7% |
| Turizm işinin təşkili | 251 | 123 | 49% | 128 | 51% |
| Cəmi | 793 | 383 | 48.3% | 410 | 51.7% |

**Humanitar, təhsil və sosial elmlər fakültəsi**

| İxtisasların adı | Tələbələrin sayı | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 164 | 160 | (97.6%) | 4 | (2.4%) |
| Beynəlxalq münasibətlər | 117 | 67 | (57.3%) | 50 | (42.7%) |
| Filologiya (Azərbaycan dili və ədəbiyyatı) | 127 | 118 | (92.9%) | 9 | (7.1%) |
| Filologiya (ingilis dili və ədəbiyyatı) | 205 | 198 | (96.6%) | 7 | (3.4%) |
| Xarici dil müəllimliyi (ingilis dili) | 261 | 250 | (95.8%) | 11 | (4.2%) |
| İbtidai sinif müəllimliyi (ingilis dili) | 112 | 111 | (99.1%) | 1 | (0.9%) |
| İbtidai sinif müəllimliyi | 165 | 164 | (99.4%) | 1 | (0.6%) |
| Politologiya | 136 | 68 | (50%) | 68 | (50%) |
| Psixologiya | 131 | 118 | (90.1%) | 13 | (9.9%) |
| Regionşünaslıq | 96 | 61 | (63.5%) | 35 | (36.5%) |
| Tarix müəllimliyi | 123 | 87 | (70.7%) | 36 | (29.3%) |
| Tarix və coğrafiya müəllimliyi | 100 | 56 | (56%) | 44 | (44%) |
| Tərcümə (ingilis dili) | 298 | 244 | (81.9%) | 54 | (18.1%) |
| Cəmi | 2035 | 1702 | (83.6%) | 333 | (16.4%) |

**Hasvet baytarlıq təbabəti fakültəsi**

**Hasvet baytarlıq təbabəti fakültəsi**

| İxtisasların adı | Tələbələrin sayı | onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Qız | Qız (%) | Oğlan | Oğlan (%) |
| Baytarlıq təbabəti | 140 | 94 | (67.1%) | 46 | (32.9%) |

Xəzər Universitetində bakalavr pilləsi üzrə ixtisas seçimi tələbələrin maraq dairəsini və gender bölgüsünü aydın şəkildə əks etdirir. Aparılan ümumi təhlil göstərir ki, universitetdə qız tələbələr sayca üstünlük təşkil edir və bu üstünlük demək olar ki, bütün fakültələrdə özünü göstərir. Lakin ixtisaslar üzrə daha detallı yanaşdıqda fərqli tendensiyalar müşahidə olunur.

Ümumilikdə, texniki və mühəndislik istiqamətli ixtisaslarda oğlanların daha çox olduğu diqqət çəkir. Xüsusilə, mexanika mühəndisliyi, elektrik və elektronika mühəndisliyi, neft-qaz mühəndisliyi və kompüter mühəndisliyi kimi sahələrdə oğlanlar açıq üstünlük təşkil edir. Bu ixtisaslarda oğlanların payı bəzi hallarda 70-80 faizə qədər yüksəlir. Bu isə göstərir ki, texniki və tətbiqi elmlər sahəsi daha çox oğlanlar tərəfindən seçilir.

Humanitar və pedaqoji yönümlü ixtisaslarda isə qızların üstünlüyü daha kəskin şəkildə özünü göstərir. Müəllimlik ixtisasları, xüsusilə, ibtidai sinif müəllimliyi, xarici dil müəllimliyi və biologiya müəllimliyi kimi sahələrdə qızların payı 95-100 faiz arasında dəyişir. Bu isə həmin ixtisasların demək olar ki, tamamilə qızlar tərəfindən seçildiyini göstərir. Eyni tendensiya filologiya, tərcümə və psixologiya kimi sahələrdə də müşahidə olunur.

İqtisadiyyat və biznes yönümlü ixtisaslar isə nisbətən daha balanslı bölgü ilə seçilir. Bu sahədə bəzi ixtisaslarda oğlanlar, bəzilərində isə qızlar üstünlük təşkil etsə də, ümumi fərq kəskin deyil. Bu da iqtisadi sahələrin həm qızlar, həm də oğlanlar üçün cəlbedici olduğunu göstərir.

Aparılan təhlil göstərir ki, tələbələr ixtisaslar üzrə qeyri-bərabər paylanmışdır. Bu fərqlər aşağıdakı amillərlə izah oluna bilər:

- **tələbələrin maraq dairəsi**
- **əmək bazarının tələbləri**
- **ixtisasların perspektivi**

Bu göstəricilər universitetin gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## Nəticə

Xəzər Universitetində tələbələrin statistik göstəriciləri göstərir ki, bütün təhsil pillələri və fakültələr üzrə qız tələbələr sayca üstünlük təşkil edir. Bu hal qızların ali təhsilə marağının ildən-ilə artdığını nümayiş etdirir və ümumilikdə, ölkədə aparılan təhsil siyasətinin nəticəsi kimi qiymətləndirilə bilər.

Bu nəticələrdən istifadə etməklə:

- **universitetin təhsil siyasəti təkmilləşdirilə bilər**
- **gender balansının daha da inkişaf etdirilməsi üçün tədbirlər görülə bilər**
- **tələbələrin ixtisas seçimi istiqamətində daha effektiv yönləndirmə aparıla bilər**

**Lamiyə Xəlilova**
*Tələbə işləri şöbəsinin müdiri*

